# "Türk-islam sənətləri" sərgisi nümayiş olunub

**Azərbaycan İlahiyyat İnstitutunda (AİI) "Türk-islam sənətləri" sərgisi keçirilib. Sərgidə rəssam Tünzalə Məmmədzadənin və "Türk-islam sənətlərinin tədrisi" kursunun iştirakçılarının əsərləri nümayiş olunub.**



Tədbirdə TEM-ART Sənət Mərkəzinin təsisçisi, layihə rəhbəri, rəssam Tünzalə Məmmədzadə sərgi haqqında məlumat verib. Bildirib ki, TEM-ART Sənət Mərkəzi və Mənəvi Dəyərlərin Təbliği Fondunun birgə layihəsi çərçivəsində təşkil olunan "Türk-islam sənətlərinin tədrisi" kursunda gənclərə islam sənətləri ilə bağlı biliklərin öyrədilməsi, təsviri sənətdə islami mövzuların tətbiqi, islami ornamentlərin tədqiq edilməsi və praktiki tətbiqi, seminarların və sərgilərin təşkil olunması nəzərdə tutulub.

AİI rektoru, dosent Aqil Şirinov çıxış edərək bildirib ki, Azərbaycan uzun əsrlərdən bəri islam sivilizasiyasının əsas mərkəzlərindən biri olub. Təsadüfi deyil ki, Teymurilər və Osmanlılar dövründə bu sənətlərin inkişafında azərbaycanlı sənətkarlar əvəzsiz rol oynayıb. Bakı Şərq və Qərb sivilizasiyalarını bir-birinə qovuşduran çox mühüm və tarixi şəhərdir.

Azərbaycanın qədim və zəngin tarixindən, mədəni abidələrindən, ölkə paytaxtının keçmiş və indiki mənzərəsindən bəhs edən A.Şirinov dövlət tərəfindən mədəni, dini və milli dəyərlərimizin qorunmasına göstərilən diqqət və qayğıdan söhbət açıb.

Türkiyənin Azərbaycandakı Fövqəladə və Səlahiyyətli səfiri Cahid Bağcı Türkiyə-Azərbaycan qardaşlığından danışıb. İslam dəyərlərinin bizim üçün əziz olduğunu vurğulayan Türkiyə səfiri bildirib ki, milli ənənələrimizin təməlində islam dəyərləri dayanır.

Daha sonra digər çıxış edənlər sərginin əhəmiyyətinə toxunub və işinə uğurlar arzulayıblar. Tədbirin sonunda "Türk-islam sənətlərinin tədrisi" kursunu müvəffəqiyyətlə başa vuran iştirakçılara sertifikatlar təqdim olunub.

***"Azərbaycan"***

Azərbaycan.- 2023.-21 aprel.- S.14.